# LOTEREYANIN İŞTİRAK QAYDALARI VƏ ŞƏRTLƏRİ

**«Tess ilə bol-bol hədiyyələr qazanın!»**

## 1. Ümumi müddəalar

**1.1.** Lotereyanın təşkilatçısı, **"Veysəloğlu" MMC**-nin (bundan sonra **Sifarişçi**) sifarişi ilə fəaliyyət göstərən **"C141" MMC (Si 141)**-dir (ünvan: AZ1025, Azərbaycan Respublikası, Bakı şəhəri, Babək prospekti, Ələddin Quliyev küçəsi, 1131-ci məhəllə, Babək Plaza, B6-06 ofisi) (bundan sonra **Təşkilatçı**).

**1.2.** Lotereyanın adı: **«Tess ilə bol-bol hədiyyələr qazanın!»**

**1.3.** Lotereyanın forması: Lotereya elementləri tətbiq edilən bonus yığımına əsaslanan loyallıq proqramı (bundan sonra **Lotereya**).

**1.4.** Lotereyanın keçirildiyi ərazi: Azərbaycan Respublikası.

**1.5.** Məhsulların alınması və qəbzlərin qeydiyyatı müddəti: **1 avqust 2026-cı il** tarixindən **30 sentyabr 2027-ci il** tarixinədək (bundan sonra **Lotereyanın keçirilmə müddəti**).

**1.5.1.** Qaliblərin müəyyən edilməsi, hədiyyə və mükafatların təqdim edilməsi müddəti: **1 sentyabr 2026-cı il saat 00:00-dan 30 oktyabr 2027-ci il saat 23:59-dək** (Bakı vaxtı).

**1.6.** Lotereyanın rəsmi qaydaları (bundan sonra **Qaydalar**) www.tess-club.az internet saytında (bundan sonra **Sayt**) yerləşdirilmişdir.

**1.7. Hədiyyələr** dedikdə, 4.4-cü bəndə uyğun olaraq balların müqabilində təqdim edilən hədiyyələr nəzərdə tutulur.

**1.8. Mükafatlar** dedikdə, aylıq və əsas tirajlarda udula bilən mükafatlar, yəni lotereya üzrə təqdim olunan mükafatlar nəzərdə tutulur (bax: 5-ci bölmə).

**1.9. Bilet** dedikdə, aylıq və əsas tirajlarda iştirak etmək üçün istifadə olunan bilet nəzərdə tutulur (bax: 4.5-ci bənd).

**1.10. Qəbz** dedikdə, lotereyada iştirak edən məhsulun alınmasını təsdiq edən və Lotereyanın keçirilmə müddətində verilmiş fiskal kassa qəbzi nəzərdə tutulur.

**1.11. Etibarlı qəbz** dedikdə, moderasiyadan keçmiş və Lotereyada iştirak üçün qəbul edilmiş qəbz nəzərdə tutulur.

**1.12. Lotereya** dedikdə, iştirakçılar arasında keçirilən və 5-ci bölmədə ətraflı təsvir olunan mükafat tirajı nəzərdə tutulur.

## 2. Satışın stimullaşdırılması məqsədilə Lotereyada iştirak edən məhsullar

**2.1.** Lotereya, Lotereyanın keçirildiyi müddətdə Azərbaycan Respublikası ərazisində sərbəst satışda olan **"Tess"** əmtəə nişanı altında istehsal edilən bütün növ çay məhsullarına (bundan sonra **lotereya məhsulu**) şamil edilir.

**3. Lotereyanın iştirakçısı olmaq üçün fiziki şəxsə dair tələblər**

**3.1.** İştirakçı dedikdə, **1 avqust 2026-cı il saat 00:00-dan 30 sentyabr 2027-ci il saat 23:59-dək** Azərbaycan Respublikasındakı istənilən ticarət obyektində lotereya məhsulunu satın almış və bu Qaydaların tələblərinə uyğun olaraq Lotereyada iştirak şərtlərini yerinə yetirmiş şəxs nəzərdə tutulur.

**3.2.** Lotereyada Azərbaycan Respublikası vətəndaşları, həmçinin Azərbaycan Respublikasında yaşamaq icazəsinə malik, Lotereyanın keçirildiyi dövrdə ölkə ərazisində daimi yaşayan və Lotereyada qeydiyyat zamanı **18 (on səkkiz) yaşını tamamlamış** şəxslər iştirak edə bilərlər (bundan sonra **Lotereya iştirakçısı**).

**3.4.** Lotereya iştirakçısı **www.tess-club.az** saytında qeydiyyatdan keçməli və Azərbaycan Respublikasının istənilən ticarət obyektində alınmış lotereya məhsuluna aid qəbzi yükləməlidir.

**3.5.** Lotereya iştirakçısı hədiyyə və mükafatların təqdim edilməsi məqsədilə şəxsi məlumatlarının emalına razılıq verir. İştirakçı bu məlumatları təqdim etməkdən imtina etdikdə, Təşkilatçı onu hədiyyə və mükafat almaq hüququndan məhrum etmək hüququna malikdir.

**3.6.** Lotereyada iştirak etməklə iştirakçı bu Qaydalarla tanış olduğunu, onları qəbul etdiyini və burada göstərilən bütün şərt və tələblərə əməl etməyi öhdəsinə götürdüyünü təsdiq edir.

**4. Lotereyada iştirak etmək üçün aşağıdakı addımlar yerinə yetirilməlidir**

**4.1.** Lotereyanın keçirildiyi müddətdə bu Qaydaların 2.1-ci bəndində göstərilən lotereya məhsulunu Azərbaycan Respublikasının istənilən ticarət obyektindən almaq, alış-verişi təsdiq edən qəbzi əldə etmək və mükafatların təqdim edilməsi müddətinin sonunadək saxlamaq.

**4.2.** **www.tess-club.az** saytında aşağıdakı düzgün məlumatları daxil etməklə qeydiyyatdan keçmək:

- Ad
- Soyad
- Elektron poçt ünvanı
- Əlaqə telefon nömrəsi
- Saytda qeydiyyat zamanı göstərilən telefon nömrəsinə göndərilmiş SMS-dəki 4 rəqəmli təsdiq kodu

**4.3.** Saytda ən azı **1 (bir)** lotereya məhsulunun alınmasını təsdiq edən **1 (bir)** qəbzi yükləmək və ballar toplamaq.

Ballar aşağıdakı qaydada hesablanır:

- Saytda qeydiyyat: **50 bal**

- Lotereya məhsulunun alınmasına görə qəbzdə göstərilən hər **1 manat** üçün: **50 bal**
- Ay ərzində minimum **3 qəbz** yüklədikdə həmin qəbzlər üzrə toplanmış ballar **ikiqat hesablanır**
- Referal proqramı: referal keçid vasitəsilə qeydiyyatdan keçərək qəbz yükləyən hər bir dəvət olunmuş dosta görə həm iştirakçıya, həm də dostuna **200 bal**
- Saytda yerləşdirilmiş oyunda qazanılan ballar. Oyunun nəticəsinə əsasən **1-dən 20-yə qədər bal** əldə etmək mümkündür.

Oyunda yalnız Lotereya müddətində minimum **3 qəbz** yükləmiş qeydiyyatdan keçmiş istifadəçilər iştirak edə bilərlər. Oyun hər gün məhdudiyyətsiz sayda oynanıla bilər, lakin yalnız həmin gün oynanılmış ilk oyunun nəticəsi qeydə alınır.

**4.4.** Toplanmış ballar aşağıdakı qaydada istifadə edilə bilər:

- **1000 bal** müqabilində aylıq tiraj üçün **1 bilet**
- Balları aşağıdakı hədiyyələrə dəyişmək:
- Şopper çanta: **1500 bal**
- Lamzak (bel çantasında): **2800 bal**
- Bel çantasında dəst (pled + fincan): **3000 bal**
- Svitşot: **4400 bal**

Ballar **17.10.2027** tarixinədək hədiyyə və ya tiraj biletlərinə dəyişdirilməlidir. Bu tarixdən sonra istifadə olunmayan ballar ləğv edilir və pul, mükafat və ya hədiyyə ilə əvəz olunmur.

**4.5.** Aylıq tirajda iştirak etmək üçün aşağıdakılardan biri və ya bir neçəsi yerinə yetirilməlidir:

- Ay ərzində minimum **2 qəbz** yükləmək və **1 bilet** əldə etmək. Bir ay ərzində maksimum **1 bilet** verilə bilər.
- **1000 balı 1 biletə** dəyişmək. Ballar müqabilində bilet sayı məhdudlaşdırılmır.

**4.6.** Əsas mükafatın tirajında iştirak etmək üçün Lotereya müddəti ərzində minimum **7 qəbz** qeydiyyatdan keçirilməlidir. Hər **7 etibarlı qəbz** üçün iştirakçı **1 bilet** əldə edir.

Hər bir biletə iştirakçının şəxsi kabinetində əks olunan **8 simvollu unikal identifikasiya nömrəsi** verilir.

**4.7.** Qəbzlərin yüklənməsi, balların və biletlərin toplanması və istifadə olunması barədə bütün məlumatlar qeydiyyatdan sonra iştirakçının şəxsi kabinetində əks olunur.

Qəbzlər Saytda qəbz üzərindəki **QR kodun** skan edilməsi yolu ilə qeydiyyata alınır. QR kod zədələnmiş və ya olmadıqda, iştirakçı qəbzin fiskal nömrəsini daxil etməklə onu qeydiyyatdan keçirə bilər.

Eyni qəbz Saytda yalnız **bir dəfə** qeydiyyata alına bilər.

Qeydiyyatdan keçmiş qəbzlər üzrə ballar qəbzin **14 təqvim günü** ərzində yoxlanılmasından sonra hesablanır. Yoxlama zamanı Təşkilatçı alışın həqiqətən iştirakçı tərəfindən həyata keçirildiyini təsdiq edən əlavə məlumatlar tələb edə bilər.

Hədiyyə təqdim edildikdən sonra alışın qaytarılması səbəbindən qəbz ləğv olunarsa, həmin qəbz üzrə ballar hesablanmır, artıq hesablanmış ballar isə silinir. Əgər həmin ballar artıq hədiyyə və ya biletlərə dəyişdirilmişdirsə, bu dəyişdirmə ləğv edilir və verilmiş hədiyyələr iştirakçı tərəfindən Təşkilatçıya geri qaytarılmalıdır.

**5. Lotereyanın mükafat fondunun tərkibi və keçirilmə qaydası**

**5.1.** Lotereyanın mükafat fondu Sifarişçinin pul vəsaitləri və əmlakı hesabına formalaşdırılır.

| **Mükafat kateqoriyası** | **Mükafat** | **Sayı** |
|---|---|---|
| **Aylıq mükafat** | Kontakt Home mağazasında 2000 AZN məbləğində hədiyyə sertifikatı | 2 |
| **Aylıq mükafat** | Ray-Ban Meta Headliner Gen 2 G15 Green Transitions ağıllı eynəyi | 2 |
| **Aylıq mükafat** | PlayStation 5 Slim 1 TB 1000040591 oyun konsolu | 2 |
| **Aylıq mükafat** | iPad Air 11-inch (M4) Wi-Fi 128 GB Space Grey | 2 |
| **Aylıq mükafat** | Dyson AirWrap i.d. HS08 Curly and Coily multistayleri | 2 |
| **Aylıq mükafat** | Xiaomi Scooter 6 BHR08R2GL elektrik skuteri | 2 |
| **Aylıq mükafat** | iPhone 16 128 GB Black | 2 |
| **Əsas mükafat** | 6000 AZN | 1 |

**5.2.** Aylıq mükafatların və əsas mükafatın tirajı lototron və biletlər vasitəsilə keçirilir. Hər bir biletə 8 simvoldan ibarət unikal identifikasiya nömrəsi verilir və həmin nömrə oynanılan mükafat kateqoriyası göstərilməklə iştirakçının şəxsi kabinetində əks olunur.

**5.3.** Aylıq tiraj, 5.5-ci bənddə göstərilən Cədvəl 1-də nəzərdə tutulmuş dövr ərzində minimum 2 qəbz yükləmiş iştirakçılar, həmçinin həmin dövrdə 1000 bal müqabilində bilet əldə etmiş iştirakçılar arasında keçirilir.

**5.4.** Əsas mükafatın tirajı Lotereya müddəti ərzində minimum 7 qəbz qeydiyyatdan keçirmiş iştirakçılar arasında keçirilir. Tirajın keçirilmə tarixi 5.5-ci bənddə göstərilən Cədvəl 1-də qeyd olunmuşdur.

**5.5. Cədvəl 1**

| **Aylıq tiraj üçün qəbzlərin qeydiyyat və bilet əldə etmə müddəti** | **Tiraj tarixi** | **Aylıq mükafat** | **Sayı** |
|---|---|---|---|
| **01.08.2026 - 31.08.2026** | 16.09.2026 | Kontakt Home mağazasında 2000 AZN məbləğində hədiyyə sertifikatı | 1 |
| **01.09.2026 - 30.09.2026** | 16.10.2026 | Ray-Ban Meta Headliner Gen 2 G15 ağıllı eynəyi | 1 |
| **01.10.2026 - 31.10.2026** | 17.11.2026 | PlayStation 5 Slim 1 TB 1000040591 | 1 |

| | | | |
|---|---|---|---|
| | | oyun konsolu | |
| **01.11.2026 - 30.11.2026** | 16.12.2026 | iPhone 16 128 GB Black | 1 |
| **01.12.2026 - 31.12.2026** | 16.01.2027 | iPad Air 11-inch (M4) Wi-Fi 128 GB Space Grey | 1 |
| **01.01.2027 - 31.01.2027** | 16.02.2027 | Dyson AirWrap i.d. HS08 Curly and Coily multistayleri | 1 |
| **01.02.2027 - 28.02.2027** | 16.03.2027 | Xiaomi Scooter 6 BHR08R2GL elektrik skuteri | 1 |
| **01.03.2027 - 31.03.2027** | 16.04.2027 | Kontakt Home mağazasında 2000 AZN məbləğində hədiyyə sertifikatı | 1 |
| **01.04.2027 - 30.04.2027** | 18.05.2027 | Ray-Ban Meta Headliner Gen 2 G15 ağıllı eynəyi | 1 |
| **01.05.2027 - 31.05.2027** | 16.06.2027 | Dyson AirWrap i.d. HS08 Curly and Coily multistayleri | 1 |
| **01.06.2027 - 30.06.2027** | 16.07.2027 | Xiaomi Scooter 6 BHR08R2GL elektrik skuteri | 1 |
| **01.07.2027 - 31.07.2027** | 17.08.2027 | PlayStation 5 Slim 1 TB 1000040591 oyun konsolu | 1 |
| **01.08.2027 - 31.08.2027** | 16.09.2027 | iPad Air 11-inch (M4) Wi-Fi 128 GB Space Grey | 1 |
| **01.09.2027 - 30.09.2027** | 19.10.2027 | iPhone 16 128 GB Black | 1 |

| **Əsas mükafatın tirajı üçün qəbzlərin qeydiyyat müddəti** | **Tiraj tarixi** | **Əsas mükafat** | **Sayı** |
|---|---|---|---|
| **01.08.2026 - 30.09.2027** | 19.10.2027 | 6000 AZN | 1 |

**5.6.** Tirajın keçirilməsi istirahət və ya bayram gününə təsadüf etdikdə, tiraj həmin günlərdən sonrakı ilk iş günü keçirilir.

**5.7.** Hədiyyələrin görünüşü reklam materiallarında göstərilən şəkillərdən fərqlənə bilər.

**6. Hədiyyə və mükafatların təqdim edilməsi**

**6.1.** Hədiyyə və ya mükafat qalib tərəfindən **"C141" MMC**-nin Bakı şəhəri, Ələddin Quliyev küçəsi 1131, Babək Plaza, B bloku, 6-cı mərtəbə, 6-cı ofisdə yerləşən ofisindən götürülə bilər.

**6.2.** Hədiyyə və ya mükafat Lotereya iştirakçısının şəxsi kabinetində göstərilən ünvana ən yaxın poçt şöbəsinə göndərilə bilər.

**6.3.** Hədiyyə və mükafatların təqdim olunma qaydası qalib və Təşkilatçı arasında qarşılıqlı razılaşdırılır.

**6.4.** Hədiyyə və mükafatlar qalibin məlumatlarının düzgünlüyü və hədiyyənin mövcudluğu yoxlanıldıqdan sonra təqdim edilir. Təşkilatçı qalibdən şəxsi kabinetinin ekran görüntüsünü (burada hədiyyələr, mükafatlar və uduş bileti nömrəsi görünməlidir), həmçinin şəxsiyyət vəsiqəsinin surətini tələb etmək hüququna malikdir.

**6.5.** Hədiyyə və mükafatlar **01.09.2026** tarixindən **30.11.2027** tarixinədək təqdim edilir.

**6.6.** Hədiyyə və ya mükafat poçt vasitəsilə yalnız bir dəfə göndərilir. İştirakçı hədiyyəni razılaşdırılmış vaxtda qəbul etmədikdə, hədiyyə Təşkilatçının ofisinə geri qaytarılır və iştirakçı onu uğursuz çatdırılma tarixindən etibarən 1 ay ərzində şəxsən götürə bilər.

**6.7.** Lotereya tirajlarının nəticələrinə əsasən mükafatlar qalib statusu təsdiqləndikdən sonra ən gec 10 gün ərzində təqdim edilir.

**6.8.** Əgər Təşkilatçıdan asılı olmayan səbəblərə görə qeydiyyat zamanı göstərilmiş telefon nömrəsi və ya elektron poçt vasitəsilə Lotereya iştirakçısı ilə 4 iş günü ərzində əlaqə saxlamaq mümkün olmazsa, iştirakçı mükafat almaq hüququnu itirir və mükafat 6.4-cü béndə uyğun olaraq ehtiyat qalibə verilir.

**6.9.** Lotereya qalibi bu Qaydalara əməl etmədikdə və ya mükafatı müəyyən edilmiş müddətdə qəbul etmədikdə, ona mükafatın təqdim edilməsindən imtina edilə və ya mükafat almaq hüququ ləğv oluna bilər. Bu halda mükafat 6.4-cü bəndə uyğun olaraq ehtiyat qalibə təqdim edilir.

**6.10.** Hədiyyə və mükafatlar şəxsiyyəti təsdiq edən sənəd və şəxsi kabinetdə uduş faktını təsdiqləyən məlumat təqdim edildikdən sonra verilir. Hədiyyə və mükafatlar qalibin nümayəndəsinə də təqdim edilə bilər. Bu halda nümayəndə öz şəxsiyyətini təsdiq edən sənədi, həmçinin operatorun sorğusundan sonra qalib tərəfindən əvvəlcədən göndərilmiş şəxsi kabinetin ekran görüntüsünü təqdim etməlidir.

**6.11.** Hədiyyə və mükafatlar yalnız bu Qaydalarda nəzərdə tutulmuş hallarda təqdim edilir. İştirakçı hədiyyə və ya mükafatdan imtina etdikdə, bu Qaydaların tələblərini yerinə yetirmədikdə və ya onları müəyyən olunmuş müddətdə və qaydada qəbul etmədikdə, həmin hüququnu itirir və hədiyyə və ya mükafat Təşkilatçının qərarına əsasən istifadə olunur.

**6.12.** 6000 AZN məbləğində əsas mükafat qalibə pasportunun əsli təqdim edildikdən, uduş bileti nömrəsinin təsdiqlənməsi məqsədilə mobil cihazdan şəxsi kabinetinə Təşkilatçıya giriş imkanı verildikdən sonra təqdim edilir. Məcburi şərtlər qalibin Lotereya Təşkilatçısının yerləşdiyi şəhərdə (Bakı şəhəri) şəxsən iştirak etməsi və Mükafatın Təhvil Verilməsi Müqaviləsini imzalamasıdır. Pul mükafatı qalibin bank hesabına köçürülmə yolu ilə ödənilir.

**6.13.** Aylıq mükafatlar və hədiyyələr pul ekvivalenti ilə əvəz edilmir.

**6.14.** Təqdim edilmiş hədiyyə və mükafatlar dəyişdirilə və geri qaytarıla bilməz.

**7. Lotereyanın ümumi şərtləri**

**7.1.** Bu Qaydalarla [www.tess-club.az](www.tess-club.az) saytında tanış olmaq mümkündür.

**7.2.** İştirakçılar Saytda qeydiyyatdan keçərkən adlarını, soyadlarını və digər məlumatlarını təqdim etməklə onların məlumatlarının, foto, video və audio materiallarının Lotereyanın keçirilməsi ilə bağlı reklam və informasiya materiallarında Təşkilatçı tərəfindən istifadə olunmasına razılıq verirlər.

**7.3.** İştirakçı aşağıdakı ünvana yazılı və imzalanmış bildiriş göndərməklə Lotereyada iştirak üçün verdiyi razılığı geri götürə bilər: **AZ1025, Bakı şəhəri, Babək prospekti, Ələddin Quliyev küçəsi, 1131-ci məhəllə, Babək Plaza, B6-06 ofisi.** Bildirişdə soyadı, adı, doğum tarixi və qeydiyyat ünvanı göstərilməlidir.

**7.4.** Razılığın geri götürülməsi barədə bildiriş alındıqdan sonra Təşkilatçı və onun səlahiyyət verdiyi şəxslər həmin iştirakçının şəxsi məlumatlarının emalını dayandırır və onları bildiriş alındığı tarixdən etibarən 5 iş günü ərzində məhv edirlər.

**7.5.** Sifarişçi və Təşkilatçı hər hansı dələduzluq əlamətləri olan şəxslərin Lotereyada iştirakını məhdudlaşdırmaq hüququna malikdir.

**7.6.** Sifarişçi və Təşkilatçı eyni ticarət nöqtəsindən çox sayda qəbz yüklənməsi və ya bir qəbzdə eyni məhsuldan həddindən artıq miqdarda göstərilməsi hallarında iştirak hüququnu məhdudlaşdıra bilərlər.

**7.7.** Sifarişçi və Təşkilatçı öz mülahizələrinə əsasən eyni ünvanda yaşayan və eyni ailənin üzvü olan, 2 və ya daha çox mobil nömrə ilə qeydiyyatdan keçmiş şəxslərin iştirakını məhdudlaşdıra bilərlər.

**7.8.** Sifarişçi və Təşkilatçı Lotereyanın keçirilmə müddətinin başa çatmasına və ya qarşısıalınmaz qüvvə, yaxud onlardan asılı olmayan digər hallar nəticəsində baş vermiş dəyişikliklərə görə məsuliyyət daşımırlar.

**7.9.** Suallar yarandıqda **+994 99 820 68 20** nömrəsi (zəng ödənişlidir, WhatsApp pulsuzdur) vasitəsilə və ya **www.tess-club.az** saytındakı məlumat mərkəzinə müraciət etmək olar.